Psixologiya Elminin Təhsildə və Cəmiyyətdə Rolu Beynəlxalq Elmi Konfrans / 5 İyul 2026 / 36-38
The Role of Psychological Science in Education and Society International Scientific Conference / 5 July 2026 / 36-38
https://doi.org/10.36719/2706-6185/PETCR/BK/36-38

# Təhsil müəssisələrinin memarlıq mühitinin təhsilalanların və müəllimlərin psixoloji rifahına təsiri

**Fatma İslamlı**

***Açar sözlər:*** *memarlıq mühiti, psixoloji rifah, təhsilalan, məktəb dizaynı, öyrənmə mühiti*
***Keywords:*** *architectural environment, psychological well-being, learner, school design, learning environment*

Günümüzdə təhsil sistemində sadəcə təlim-tədris metodları deyil, eyni zamanda təhsil mühitinin fiziki və psixoloji xüsusiyyətləri mühüm rol oynayır. Təhsil müəssisələrinin memarlıq mühiti dedikdə buraya dərs otaqlarının işıqlandırılması, səs izolyasiyası və ümumi estetik görünüş aid edilir. Bütün bu amillər həm təhsilalanların, həm də müəllimlərin psixoloji rifahına birbaşa təsir göstərir. Aparılan tədqiqatlar göstərir ki, düzgün planlaşdırılmış təhsil müəssisəsi mühiti motivasiyanı artırır, stressi azaldır və öyrənmənin səmərəliliyini yüksəldir. Təhsil mühitinin fiziki strukturu insanların emosional vəziyyətinə təsir göstərən əsas faktorlardan biridir. Təbii işığın bolluğu, normal temperatur və uyğun rəng çalarları diqqəti artırıb narahatlığı azaltmağa kömək edir. Əksinə, dar, narahat, qaranlıq və səs-küylü siniflər stress səviyyəsinin artmasına səbəb olur.

Naxçıvan Müəllimlər İnstitutu, Naxçıvan, Azərbaycan
E-poçt: islamlifatma@nmi.edu.az

Təhsilalanlar üçün təhsil müəssisəsinin mühiti yalnız öyrənmə mühiti deyil, eyni zamanda emosional inkişaf zonasıdır. Belə ki, hesab edilir ki:
• Açıq və estetik siniflər yaradıcılığı artırır;
• Təbii işıq adaptasiyanı gücləndirir;
• Rahat oturma zonaları yorğunluğu azaldır;
• Bəzi (yaşıl, mavi) rəng psixologiyaları sakitlik və diqqət yaradır.

Nəticədə belə mühitdə təhsil alan şagird və tələbələrdə akademik göstəricilər daha yüksək olur. Müəllimlərin iş məhsuldarlığı da birbaşa mühitdən asılıdır. Rahat və funksional müəllim otaqları, estetik mühit emosional yorğunluğu və stressi azaldır, iş motivasiyasını artırır. Səhv və ya plansız təşkil olunmuş təhsil mühiti isə müəllimlərdə tükənmişlik sindromuna səbəb ola bilir. Müasir təhsil memarlığında "şagird mərkəzli dizayn" ön plana keçməkdədir. Açıq siniflər, təbiətlə inteqrasiya olunmuş məktəblər bu baxımdan daha effektiv hesab olunur. Skandinaviya ölkələrinin məktəb memarlığı modelləri dünya üzrə nümunə kimi göstərilir.

Nəticə etibarilə, təhsil müəssisələrinin memarlıq mühiti təhsil prosesində gözardı edilə bilməyən bir amildir. Düzgün dizaynlaşdırılmış müəssisə mühiti həm şagirdlərin öyrənmə motivasiyasını, həm də təhsilverənlərin iş məmnunluğunu artırır. Bu səbəbdən də təhsil prosesində memarlıq və psixoloji rifah əlaqəsi daha ciddi nəzərə alınmalıdır.

**Ədəbiyyat**

1. Azərbaycan Respublikasının Təhsil İnstitutu. *(Nəşr ili göstərilməyib). Materialları.*

2. Əlizadə, Ə. Ə. *Pedaqoji psixologiya*.
3. Woolner, P. (2010). *The design of learning spaces*. Continuum International Publishing Group.